

Azad Müzəffərli

# Ağdamlı Fəxrəddin

*hekayə*



Şənbə və bazar günlərini könlü istəyən kimi dincəlmişdi. Fəxrəddini Bakıda yaşayan dostu doğma yurdu Zaqatala rayonuna qonaq aparmışdı. Buranın təbiətinə vurulmuşdu. Ucalıqda bir-biri ilə bəhsə girən dağları, insana söhbətləşən müdrik qocaları xatırladan azman qayaları, ucsuz-bucaqsız yamyaşıl meşələri, ətrafdakı rəngarəng təbiətə təpər verən gursulu çayları, ahıllarda belə gənclik həvəsi oyadan şaqraq şəlalələri birdəfələlik gözünə və könlünə köçürmüşdü. Dördbir tərəfə səpələnmiş qədim abidələr, bu yerlərdəki ənənəvi memarlığa həssas münasibət köksünü dağa döndərmişdi. Çeşidbəçeşid ləziz təamların dadı da hələ damağından getməmişdi. Vətən onun üçün bir boy da yüksəlmişdi. Təbii ki, bu səfəri onda zəngin təəssürat oyatmaqla yanaşı, Qarabağ nisgilini də təlatümə gətirmişdi. Elə yuxuya da Ağdam həsrəti ilə dalmışdı.

Külfətlərini də qoltuqlarına vuran Fəxrəddin və bir neçə mehriban qonşusu Qarqar çayının yaxınlığında, Qurdlar və Şelli kəndlərinin bir addımlığındakı dağın döşündə, meşənin səfalı bir guşəsində “lövbər salmışdılar”. Qocaları, qız-gəlini, körpələri də unutmamışdılar. Onların gəlişindən təbiət də nura, çiçəyə bələnmişdi. Ətrafdakı kəklikotularının ətri isə sözlə ölçüyə gəlmirdi. Təbiətin xalısı onların ixtiyarında idi. Üzbəüzdəki Qarayan yüksəkliyinin altından qaynayan suyu Ağdama çatdıran kəhriz də ətrafdakı əzəmətə əlavə çalar qatırdı. Burada bir dəmdəsgah var idi ki, tamaşasına dörd göz gərəkdi. Ocaqlar çatılmış, qazanlar asılmış, sacların altındakı közlə ləziz yeməklərin ətri bir-birinə qarışıb ətrafı cənnətə döndərmişdi. Əvvəlcədən şərtləşmişdilər ki, bu dəfə yalnız Ağdam mətbəxinə üstünlük verəcəklər.. Süfrəyə dədə-baba qaydasınca mütləq boyanalı plov verilməli idi. Qazmaq əvəzi qazanın dibinə döşənən 5-6 kiloluq tamlı quzu ətinin üstünə əlavə olunmuş düyü zəif odda dəmə qoyulmuşdu. Nənə düyü qatının üzərində oyuqları açmaq istəyəndə Fəxrəddin özünü saxlaya bilməyib irəli gəldi, bunu ona həvalə etməsini istədi. Hər oyuğa bir yumurtanı da özü çaldı. Boyanalı plov süfrəyə verildi və üzərinə sarımsaqlı qatıq da əlavə olundu. Hamı bir nəfər kimi bu əvəzsiz təamı gözünə təpdi. Ətrafda elə bil milli mətbəx festivalı keçirilirdi.

Qadınlara ürəklərini tam boşaltsınlar deyə fürsət yaratmaq adı ilə kişilər günortadan sonra maşınla yollandılar Şuşaya Cıdır düzünə, kəkotu çayı içməyə. Biraz keçmiş cənnətin mərkəzindəydilər. Təkrarsız dada malik bulaq suyundan hazırlanan kəkotulu çay buranın təbiətini “həzm etməy”in ən məqbul vasitəsiydi. Mürsəl kişinin məlahətli səsi də onlara gəl-gəl deyirdi. Cıdır düzünün ləzzətini çıxarandan sonra “Şuşanın dağları”nın sədaları altında endilər İsa bulağına. Buz kimi suda əl-üzlərini yuyub qulaq kəsildilər Mürsəl kişinin özünəməxsus avazına. 104 yaşında bu müdrik insan qavalını qoltuğuna vurub hər gün Şuşadan İsa bulağına təqribən yeddi kilometrlik yolu piyada gedib-gələrdi. Pərəstişkarlarının qəlbini qırmazdı. Oxumaqda pərgardı, hər bir muğamı tam dəqiqliyi ilə ifa edərdi. Yaxşı bilirdi ki, muğamatda dədə-baba qaydasından azca kənara çıxsan, mütləq qarabağlıların qınağına tuş gələcəksən. Mürsəl kişinin nadir təbiəti ilə seçilən bu məkandakı “konsert”inin zəngin təəssüratı günlərlə insanı xoş ovqata kökləyərdi.

Doqquzuncu mərtəbədə, qohumugilin mənzilində məskunlaşan Fəxrəddini bu “möcüzə”dən yenə də “xoruz banı” ayırdı. Həmişəki kimi səhər saat altı-yeddi radələri idi. Ləlləkləri min bir rəngə çalanları xoruz dinc durmaq bilmirdi. Ağdamda yaşadıqları zaman həyətlərində bəslədikləri həmin xoruz hər gün onun “çağrılmamış qonağ”ı idi, səhəri onunla açardı. Bu xoruzla haçansa bir daha üzbəüz olacağına uşaq kimi inamını da itirməmişdi. Təki, istəyi reallaşaydı, həmin xoruzu doğması təkin bağrına basmağa da hazırdı.

Fəxrəddin ağlı kəsəndən futbol dəlisiydi. Bu “azar”ı ailəsinə də keçmişdi. “Qarabağ” komandasının vurduğu qollar ailəvi “atəşfəşanlıq”la qarşılanardı. Bu klubun hər bir qələbəsi bütün məcburi köçkünlər kimi onların da yarasına məlhəm olardı. “Qarabağ”ın son illərdə Avropa futbolunun nəhəngləri ilə bərabər səviyyədə oyun nümayiş etdirməsi, qələbələri sıralaması və qitə yarışlarının həlledici mərhələsinə vəsiqə qazanması onları doğma yurda addımbaaddım yaxınlaşdırırdı. Təbii ki, nisgillərini də yığıb-yığışdırmaqla qurtaran deyildi. Fəxrəddin kişi hər gün günorta çağı Ağdam məscidində səslənən azanın həsrətindəydi. Ustad xanəndə Hafiz Sədirzadənin bağrından qopub gələn o Tanrı kəlamları iliyinə işləmişdi. Nənə və babalarının, yaxın qohum-qardaşının dəfn olunduğu Qarağacı qəbirstanlığını da yalnız qiyabi ziyarət edə bilirdi. Əlalxüsus, müxtəlif bayramlarda Bakı sakinlərinin əllərində qərənfil dəstəsi ellilikcə qəbirstanlıqlara axışdıqları, yaxınlarının ruhuna Quran oxutdurduqları günlər onun kimi bütün məcburi köçkünlər üçün sözlə ölçüyəgəlməz mənəvi əzaba çevrilirdi. Əlacsızlıqdan yanıb-yaxılar, qıvrım-qıvrım qovrulardılar. Az da olsa təskinlik tapmaq üçün Fəxrəddin son vaxtlar belə günlərdə kimsəsizlərin qəbirlərinə baş çəkər, onları gül-çiçəyə qərq edər, tanımadığı soydaşlarının ruhuna dualar oxutdurardı. Beləcə ona elə gələrdi ki, bu yolla az da olsa, o dünyaya köç edən əzizlərinin ruhuna nəsə” pay” qatırdı. Məcburi köçkünləri bir dərd də yaman yandırırdı.

Məcburi köçkün həyatının ağrıacısını nisbətən də olsa səngitmək üçün imkan düşdükdə Fəxrəddin Bakıda yaşadığı binanın nərd atan sakinlərinə qoşulardı. Zarafat-zarafata qarışardı. Ən sərt “sancmaları” belə hamı yola verərdi. Kimsə kimsənin xatirinə dəyməzdi.

- Ə, bu şeş-beş döyül e, nərdtaxtadı, nərdtaxta...

- Mən kəndçi babayam dayna, hardan bilim bunu axı?!.

- Ə, bir oynasana, bu şahmat döyül e?!.

- Ə, kirisənə...

- Taxsır məndədir, niyə, axı, səninlə nərdtaxta arxasına keçirəm ki, bunları da eşidim...

- Bax, bu şeş qoşanı da mən atmışam e, mən, gözünə su ver...

Hər belə zarafatdan sonra gülüş ərşə dirənirdi. Beləcə, bir az da olsa, gündəlik qayğılardan yüngülləşərdilər.

Yolu metronun “İçərişəhər” stansiyasından keçəndə Fəxrəddin Filarmoniya bağına da baş çəkmək fürsətini fövtə verməzdi. Bu onun üçün sirli-sehrli bir məkandı. Qədimliklə müasirliyin üzvi şəkildə qovuşduğu bu yer ona doğmaydı. Qala divarları Fəxrəddinə Ağdam və rayonun çoxsaylı kəndləri boyunca səpələnmiş, tarixi hesaba gəlməyən qədim yaşayış məskənləri, qalalar, türbələr, məscidlər, məbədlər, kurqanlar, sərdabələr, digər daş abidələri xatırladardı. Burada xeyli təskinlik tapardı. Bütün məcburi köçkünlər kimi həmin abidələri göz və könül dolusu seyr etməyin günlərin birində onun da qismətinə düşəcəyinə inamı güclənərdi. Ermənilərin dağ çəkdiyi bu maddi-mədəniyyət abidələrinin bircəcik daşını, xırım-xırışını belə bağrına basmağa, öpüb gözünün üstə qoymağa cani dildən hazırdı.

Növbəti dəfə yenə bu ülvi hisslərin təsirindən qopa bilmirdi. Bir neçə saatdı buradaydı. Özünü büsbütün unutmuşdu. Qaş qaralmağa doğru gedirdi. Qəflətən diqqətini yaxınlıqdakı bir elan çəkdi. Həmin gün axşam filarmoniyada məşhur alman bəstəkarı və pianoçusu Hauschkanın konserti olacaqdı. Nə qədər dünyaca tanınmış musiqiçi olur-olsun, kimsə onun gözündə Azərbaycanın muğam ustadlarından ucada dura bilməzdi. Ona görə də belə konsertlərə o qədər də maraq göstərməzdi. Bu dəfə halı tamam başqa idi. Özündən asılı olmayan hansısa bir qüvvə ona bilet aldırdı. Bu hərəkətindən özü də bir o qədər baş açmasa da, tezcə evə yollandı, çöl-bayırlıq libasını geyib filarmoniyaya tələsdi.

Konsertin başlaması ilə Fəxrəddin musiqi dünyasına qapıldı. Hansı millətə mənsub olmasına baxmayaraq peşəkar klassik musiqiyə biganə qalmaq mümkün deyil. Musiqinin dili ümumi dildir.

Alman bəstəkarının əsərindəki musiqinin ritmi əvvəlki gərginliyini saxlasa da, ortada bir qədər səngidi, eyni axar aldı. Fəxrəddinin gözləri önündə Ağdamın tanınmaz hala gətirilən ağır, yeyinti və yüngül sənaye müəssisələri, asfalt, pambıq, konserv, yağ-pendir, çörək, şərab və digər zavodlarının, xalça fabrikinin, taxıl məhsulları kombinatının, onlarla təhsil, mədəniyyət, səhiyyə və sosial obyektlərin qalıqları canlandı.

Musiqi sona doğru yenidən yüksək notlara kökləndi. Əsərin bu hissəsində hayqırtı, təlatüm, haqqınədalətin gözünə dik baxmağa çağırış, imdad dolu mələrti vardı. Fəxrəddinin halı dözülməzdi, sanki indicə huşunu itirəcəkdi. Bunu qonşuluğunda oturanlar da hiss edirdilər.

Musiqi nömrəsinin bitməsi ilə o, ətrafdakıların da onunla eyni halda olduqlarının mahiyyətinə vardı. Bu ona qəribə gəldi. Onunla yanaşı oturan kəsin klassik musiqi bilicisi olduğunu elə konsert başlayandan sezmişdi. Yavaşca ona sarı əyilib soruşdu: - Dost, bu əsərin adı nədi?!. Məcburi köçkün babayam, sizi narahat etdiyim üçün məni üzürlü sayın?!.

Bayaqdan onun halına acıyan qonşusu mehriban və mənalı bir tonda dilləndi: - Bu əsərin adı “Xaraba Ağdam”dır, fortepianoda ifa edən alman bəstəkar bunu özü notlara çevirib.

Fəxrəddinin matı-qutu qurudu. Eşitdiyi onda bayaqdan Ağdamla bağlı duyduqlarından daha güclü təsir doğurdu. Fikirləşdi ki, İlahi, bu hələ bir əcnəbinin görüb, duyduqlarıdır. Gör indi, məcburi köçkünlər ötən müddətdə yaşadıqlarını nota köçürə bilsəydilər, necə əsər alınardı?!.

Məcburi köçkünlüyün yükünü müvəqqəti də olsa çiyinlərindən atmaq üçün tez-tez nəvələrinə qatılıb, evin içindəcə o yan, bu yana qoşar, bəzən lap körpələrlə birgə iməkləyər, bəzən də şirin nağıllar söyləyərdi. Belə anlarda uşaqlıq illəri yadına düşər, sarı simlər dilə gələrdi. O, nəvələrinə təkrar-təkrar “Heç vaxt yaddan çıxarmayın, siz ağdamlı balasınız!!!” deməkdən yorulmazdı. Onun qənaətincə, zatına hörmətlə yanaşmaq hər bir millətin gələcəyinin təminatının açarıdır. Təzəcə ikinci sinfə getməyə hazırlaşan nəvəsinin “Baba, bəs, biz Ağdama nə vaxt qayıdacağıq?!.” sualının cavabında isə dili-dodağı tutular, daxili dünyası tarmar olardı. Bu acınacaqlı vəziyyətdən yalnız acizanə şəkildə “İnşallah...” deməklə çıxmaq məcburiyyətində qalardı.

Bütün gecəni yerindəcə qurcalanmışdı. Gözlərinə əməlli-başlı yuxu getməmişdi. Ürəyinə dammışdı ki, nəsə xoş xəbər eşidəcək. Gözləri yol çəkirdi, qulaqları da səsdəydi. Qəfildən həyəti səs-küy basdı. Tələm-tələsik aşağı düşdü. Gözlərinə inanmadı. Bir neçə Qarabağ atı qarşısındaydı. Doğma baxışları ona sarı zillənmişdi. Bu məqamda qonşuları bildirdilər ki, deyirlər, bu atlar bütün ölkəni bürüyüb. Dördbir tərəfi Qarabağ atlarının kişnərtisi basmışdı. Sanki Ağdam Atçılıq Zavodunun darvazalarını laybalay açmışdın. Hövlnak tini burulan iki sütül gənc də ona tanış gəldi. Necə də tanımasın. Bunlar Qarabağın ilk şəhidləri idi, Əsgəranda namərd düşmənin gülləsinə tuş gəlmişdilər. Əli Hacıyev və Bəxtiyar Quliyev tezcə ona yaxınlaşdılar: - Fəxrəddin əmi, zəhmət olmasa, atlan, burada yaşayan bizlərin kişilərindən daha kimlər var, onları da səslə, gecikməyək. Birazdan millət ayağa qalxacaq, bütün ərkəklər döyüşə haylanacaq. Məcburi köçkünlər də hər kəsən öz qərargahlarına toplaşmalıdır, tapşırıq belədir. Biz - ağdamlılar Quzanlıya yollanırıq. Gəlin gedək, görək, ermənilər bu dəfə nə deyir?!. Onlara “Dördgünlük müharibə”nin növbəti seriyasını yaşatmağın vaxtı yetişib, donuzu özbaşına qoysan, pəyədən çıxan deyil!?. Fəxrəddin bir də özünə gələndə artıq Qarabağ atlarının yalmanına yata-yata Quzanlıya yetməkdəydilər.

Bütün məcburi köçkünlər dizindizin Qarabağa sarı sürünürdülər. Qabaqda dədə-baba torpaqlarını yenicə yağı düşməndən azad edən kişilər, dallarınca da külfətləri. Bu köç bütün ölkəni hörümçək toru kimi əhatəyə almışdı. Hamı öz doğma yurduna tələsirdi, az qala dördnala çapırdılar. Millət bayram içindəydi. “ Onlar bir daha gəldikləri yerlərə dönməzlər” deyən ağzıgöyçəklərsə puçur-puçur tər axıdır, peşimanlıqlarını yığıb-yığışdıra bilmirdilər. Bir nəfərsə köçü yaman qabaqlayırdı, hamıdan xeyli irəlidəydi, elə bil, Qarabağa sarı uça-uça irəliləyirdi. İlk dəfəydi onun bu halı qətiyyən səbirsizliyindən qaynaqlanmırdı. O, Fəxrəddin kişi idi, ağdamlı Fəxrəddin...